

**Diləfroz Eşanqulova**

# Həqqi bilən ürəklər...

Səcdədə sabitdirlər, eləməzlər nidalər,
Taətəaşina qəlb, onun dostu gədalər,
Ətəyinə yapişmiş, ağlayıraq vidalar,
Gecə qoynunda sübh üzər, həqqəşqindəədalər.

Ürəyində saxlayır Rəsulunun salamin,
Əmanət deyə bilsin! Həqqin hər bir qulamin,
Onlar yerdəki mələklər, üzlərindən nur saçır,
Dildən çıxmadan oxur Yaradanın kəlamin.

Tale yazılarına etməz heç vaxt itiraz,
Təqva bağları ona Buxarilərdən miras,
Anlayırlar dünyanın qədim hikmətlərini,
Dörd ayaqlı taxta at gözləməyək bir az.

Xəyallarilimma-lim! Cənnət qapısın döyür,
Yaradanın baxışı sevindirir və sevir,
SiyrətinNəbəvininayəsin təkrar edirlər,
Gözlərindənşukurun, zem-zem suları axır.

Səbiringulşənində padşah kimi bu zatlar,
Bu fanı bazarlarda kufrdan başqa, yatlar,
Dərd gələndə izzətlənir, nəhar kimi xöşlənir,
Axirət lövhəsində yazır gizli bayatlar!

Səvabin etməz göz-göz, heç kim bilməz heç zaman,
Ey münafiqlər! Başı göydən aşağı salın.
Qızılsız təvazökar, paltarı deyil qızıl,
Seçilmiş axı onlar, sırasına tələsin.

Gecə qoynunda sübh üzər, həqqəşqindəədalər...

# Gözünüzü açın

Yorudursa azarlar,
Xiylə dolu bazarlar,
Düşündürür məzarlar,
Dostum, açin gözünüz.

Öz nəslini də satan,
Bal deyil zəhər datan,
Kədər-azapa batan,
Dostum, açin gözünüz.

Dünya sənə amanət,
Ona etmən xəyanət,
Sünnət axı diyanət,
Dostum, açin gözünüz.

Böyüyəcək qızınız,
Bir gün basar iziniz,
Təəssüf etmən özünüz,
Dostum, açin gözünüz.

Mərtəbəniz də sərab,
Məhv edər bir gün xərab,
Verdiyi yalnız azab,
Dostum, açin gözünüz.

Gəlsə ələ dövlətlər,
Çaşirmasinsövlətlər,
Tukənsin illətlər,
Dostum, açin gözünüz.

Vətən eşqi yandırsa,
Öz torpağın sevdirsə,
Mənfəətlər pozulsa,
Dostum, açin gözünüz.

Sizə pasban şəriət,
Onda vardır həqiqət,
Olman indi bişəfqət,
Dostum, açin gözünüz.

***

***

***

Türküstan.- 2022.- 10-14 mart.- S.14.Tərcümə etdi: R.Babacan